**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının konsertmeyster ustalığı kafedrasının müdiri, professor Nailə Əli qızı İbrahimova Fəridə Quliyeva məktəbinin ən parlaq nümayəndələrindən biridir. Nailə xanım Fəridə Quliyeva sinfinin dərin biliyə malik, çox ciddi və yüksək mədəniyyətli tələbələrindəndir.**

# Nailə İbrahimova yaradıcılığında

## konsertmeyster ustalığının pedaqoji prinsipləri

**Onun ifasında formaca iri əsərlərdən Frankın Prelüdiya, xoral və fuqası, Prokofyevin fortepiano və orkestr üçün 2 saylı konserti, Bethovenin sonataları və digər əsərlər müvəffəqiyyətlə səslənmişdir. (1)**

Nailə Əli qızı İbrahimova 1946-cı il mayın 26-da Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1969-cu ildə o, Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının fortepiano fakültəsini bitirmişdir.

1972-ci ildən başlayaraq Nailə xanım Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının müəllimi vəzifəsində çalışır. Pedaqoji fəaliyyətə başladığı ilk gündən öz ciddiliyi, tələbkarlığı, yüksək mədəniyyəti ilə seçilən Nailə xanım eyni zamanda tələbələrlə çox mehriban, qayğıkeş və səmimi davranır. O, tələbələrinin hər bir uğurlu nailiyyətinə ürəkdən sevinir və onları maksimum səylə doğru yaradıcılıq yoluna istiqamətləndirir.

Bakı Musiqi Akademiyasında fəaliyyət göstərdiyi müddətdə Nailə xanım bir çox yüksək ixtisaslı musiqi kadrları hazırlamışdır, belə ki, onların arasında dünyanın bir çox ölkələrində qastrol səfərlərində olmuş beynəlxalq müsabiqə laureatları var. Nailə xanımın tələbələri həmçinin dövlət imtahanlarında çox uğurlu çıxışlar edir, Respublika müsabiqələrində, müxtəlif konsertlərdə müvəffəqiyyətlər əldə edirlər. Hal-hazırda Nailə İbrahimova sinfinin məzunları opera teatrlarında, ali və orta ixtisas məktəblərinin vokal, orkestr və dirijor siniflərində konsertmeyster kimi fəaliyyət göstərirlər.

Nailə xanım çox tez bir zamanda işlədiyi kollektivin rəğbətini qazanır, belə ki, 1996-cı ildə ona yüksək etimad göstərilir və Nailə xanım Bakı Musiqi Akademiyasında "Konsertmeyster ustalığı" kafedrasının müdiri vəzifəsində çalışmağa başlayır. Bundan sonra o, daha gərgin elmi-pedaqoji fəaliyyəti ilə seçilir. Nailə xanım 1994-cü ildən dosent, 2004-cü ildən isə professor vəzifəsində çalışır. Təhsil və mədəniyyətimizin inkişafında böyük əməyinə görə Nailə İbrahimova 2008-ci ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Məlumdur ki, Azərbaycanın müasir musiqi ifaçılığında konsertmeyster ustalığının rolu olduqca böyükdür. Bildiyimiz kimi, konsertmeyster ustalığı sinfi yüksək ixtisaslı musiqiçi kadrların hazırlanmasında mühüm rol oynayır.

Azərbaycanda konsertmeyster ustalığının nəzəriyyə və təcrübəsi bilavasitə Azərbaycan bəstəkarlarının əsərlərinin ifası ilə bağlıdır. Buna da milli intonasiyalar, melodik, harmonik və digər xüsusiyyətlər xarakterikdir. Azərbaycan Dövlət Konservatoriyasında müşayiət sinfi 1937-ci ildə açılmış, onun ilk rəhbəri böyük istedada malik gözəl musiqiçi, konsertmeyster V.M. Kozlov 23 il müddətində fəaliyyət göstərmişdir. V.M. Kozlovun Azərbaycan vokal incəsənətinin görkəmli xadimləri, yeni, professional vokal məktəbinin təməlini qoymuş Şövkət Məmmədova və Bülbül ilə birgə fəaliyyətini xüsusilə qeyd etmək lazımdır.

1961-ci ildə müşayiət sinfinə təcrübəli konsertmeyster müşayiətçi E.S. Xanina rəhbərlik edir. 1968-1970-ci illərdə müşayiət sinfinin müəllim heyətinə T. Ağalarova, M.Seyidzadə, E.Əsgərova, İ.M. Əliyeva və T.Bədirxanov cəlb olunur (2).

1977-ci ildən kafedra 2 müstəqil -metodika, pedoqoji təcrübə və konsertmeyster ustalığı kafedrasına bölünür. Bu da öz növbəsində ixtisas-musiqiçilərin gələcək professional fəaliyyətləri üçün kompleks

şəklində hərtərəfli hazırlığında böyük rol oynayır.

Konsertmeyster ustalığı kafedrasına professor F.Ə.Quliyeva sinfinin məzunu N.Ə. İbrahimova rəhbərlik etdiyi müddətdə kafedrada professional ixtisasçı kollektiv, Bakı Musiqi Akademiyasının ən yaxşı pianoçu - məzunlarından ibarət müəllim-konsertmeyster heyəti çalışır. Kafedranın pedaqoji heyəti illər boyu birgə iş birliyində professional ustalıq əldə etmişdir. Bir çox musiqiçilər konsertmeyster sənəti ilə məşğul olmaqla pedaqoji və ifaçılıq fəaliyyətləri arasında bir bağlılıq yaradırlar.

Məlumdur ki, pedaqoji fəaliyyətlə yanaşı, həm də fəal ifaçılıqla məşğul olmaq çox çətindir. Bu halda ifaçılıq təcrübəsini saxlamaqdan ötrü məhz konsertmeyster fəaliyyəti köməyə gəlir. Digər tərəfdən ifaçı üçün yaşa dolduqca solo çıxışlarını yüksək dərəcədə ifa etmək çətinlik yaratdığı halda, həmçinin bütün enerjisini pedaqoji fəaliyyətə sərf edən musiqiçi üçün ifaçılıqdan uzaqlaşmaq şəxsi ifaçılıq ustalığının itirilməsi demək olduğu halda, bu baxımdan konsertmeysterlik fəaliyyəti köməyə gəlir. Yəni ifaçı həm ansambl, həm də solo çıxışları ilə uzun müddət ustalıq səviyyəsini saxlamaqla yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olur (3).

Professor Nailə xanımın keçirdiyi dərs prosesi hər zaman yeni yaradıcılıq tapıntıları ilə zəngin olub, tələbələrdə böyük maraq yaradır. Tədris prosesində Nailə xanım ilk öncə ifa olunan əsərin məzmunu və müəllifi haqqında geniş məlumat verir, çalışır ki, pianoçu ifa etdiyi əsərdə not sətirlərini həm görə, həm də eşidə bilsin. Bununla da, ifaçının üzərinə notu öyrənməklə yanaşı, mətni qavramaq da düşür. Beləliklə, əsər bütöv və sanki kiçik bir partitura şəklində pianoçu tərəfindən öyrənilir.

Nailə İbrahimova çalışır ki, tələbə fortepiano partiyasını solo oxuma partiyasından ayırmasın və bununla bahəm müşayiəti 2-ci dərəcəli hesab etməsin. İlk dərslərdə professor çalışır ki, tələbə solistin vokal nəfəslərini hiss etsin, belə ki, vokal müşayiətində bu çox vacib amillərdəndir. Həmçinin onu da nəzərə çatdırır ki, solistin fiziki və psixoloji durumundan asılı olaraq vokal nəfəsi də müxtəlif ola bilər.

Nailə xanımın tələbəyə verdiyi praktiki məsləhətlərdən biri də bu idi ki, əgər müəllif tərəfindən uzadılmış səs üzərində ritenuto işarəsi qoyulubsa, pianoçu ritenutonu uzanan səsin ikinci yarısında etməlidir. Bu da solisti "sığortalamaq" üçün nəfəsin çatmadığı halda ona kömək olacaqdır. Analoji olaraq əgər solistin partiyasında fermato varsa, fermatodan sonrakı parçanı və ya akkordları fortepiano partiyası dərhal tempdə ifa etməli və mümkün qədər fermatonu qısaltmalıdır (4). Nümunə olaraq Puççininin "Bohema" operasından Miminin ariyasını göstərmək olar:



Professor Nailə xanım fortepiano ifaçılığında pedalizasiyanın vacib olduğunu hər zaman qeyd edir və tələbəyə pedaldan düzgün istifadə etməyi məsləhət görür. Nailə İbrahimova müşayiət zamanı temp və ritmin mühüm yer tutduğunu, belə ki, tempin tez-tez dəyişdiyi anda ona nəzarət etməyi öyrənmək üçün müşayiətçiyə inkişaf etmiş güclü musiqi duyumunun vacibliyini vurğulayır.

Həm solo, həm də müşayiət partiyasında müxtəlif pauzalar diqqət çəkir. Dərs prosesində Nailə xanım çalışırdı ki, pianoçu solistin pauza vaxtını tempi uzatmadan, ümumi ritmi saxlamaqla "doldurmağı" bacarsın. Həmçinin professor bas səsinin dəqiq və duyumlu ifasının solist-vokalçı üçün nə qədər önəmli olduğunu, nəinki metro-ritmik dəqiqliyə, habelə ifa olunan melodik xəttin rəngarəngliyinin asanlıqla hiss olunmasına kömək etdiyini vurğulayır.

Dərs prosesində professor Nailə xanım çalışır ki, tələbə dinamik işarələrə çox diqqətlə yanaşsın, heç bir dinamik dəyişikliyi nəzərdən qaçırmasın, əks halda ifa zamanı ümumi musiqili təəssürat pozulur, ifadəlilik itir, dinləyicinin qavrama gücü zəifləyir. Nailə İbrahimovanın fikrincə, ifa olunan əsərlərdə səsin dinamik gücündən asılı olmayaraq yadda saxlamaq lazımdır ki, fortepiano nisbətən zəif səslənməlidir. Solistlə fortepiano arasında fərq minimal dərəcədə olmalıdır.

Bir çox təcrübəsiz konsertmeysterlərdə alətin ya çox möhkəm, ya da eşidilməz dərəcədə səslənməsinin şahidi oluruq. Nailə xanım hesab edir ki, solistlə birgə iş prosesində ilk öncə səslənmənin ümumi xarakterinin təyini, birgə dinamik planın hazırlanması, kulminasiya anının qeyd olunması, daha sonra artikulyasiyanın düzgün qurulması zəruridir. Bununla bahəm professor bir məqama da toxunur, belə ki, pianoç -tələbə Azərbaycan bəstəkarlarının (Ü.Hacıbəyov, S.Rüstəmov, F.Əmirov, Q.Qarayev və s.), rus bəstəkarlarının (P.İ.Çaykovski, M.P.Musorqski, K.Metner, S.S.Raxmaninov, S.Prokofyev və s.), xarici bəstəkarların (R.Şuman, F.Şubert və s.) vokal silsilələri üzərində işləyərkən böyük təcrübə əldə edir.

Nailə xanım müşayiətin daha ifadəli səslənməsi üçün səsin tembrinə xüsusi diqqət ayırmağı tələbəyə məsləhət görür, səs üzərində işləyərkən səs texnikasının inkişafına, fortepiano partiyasında maraqlı və rəngarəng effektli səslənməyə nail olmağa çalışır. Onu da qeyd etmək lazımdır ki, Nailə xanımın ən ciddi tələblərindən biri tələbənin fortepiano partiyasını mükəmməl öyrənməsidir. Məhz bu zaman ifaçı ansambl prosesində özünü çox rahat və not mətnindən asılı olmayaraq hiss edir.

İti templi əsərlərin ifası zamanı tələbə - konsertmeysterə not mətninin əzbər öyrənilməsi vacibdir. Dərs prosesində Nailə İbrahimova tələbələrini düzgün istiqamətləndirir, onlara mürəkkəb ifaçılıq məsələlərinin həllində kömək edir, ansambl çətinliklərinin öhdəsindən məharətlə gəlməyi və ən nəhayət, alət arxasında müstəqil işləməyi öyrədir.

Professor çalışır ki, müstəqil işləyən pianoçu - tələbə mətnlə bərabər vokal partiyasını da zümzümə etsin və beləliklə, hər iki partiyaya mükəmməl yiyələnsin. Bu məqamda nəinki müşayiət, eləcə də solo partiyasının analizi zəruridir. Bundan əlavə, tələbə vokal ifaçılığının ümumi nəzəri bilikləri ilə də tanış olmalıdır. Nailə xanım məşq zamanı əsər üzərindəki işi 3 əsas perioda bölür: hazırlıq (solistsiz məşq); əsas (solistlə və solistsiz); yekunlaşdırıcı (yalnız solistlə).

Nailə İbrahimova konsertmeyster ustalığı sinfində ifaçılıq repertuarının əsas tədris materialı olduğunu, tələbə-pianoçuların təhsil və inkişafında bilavasitə çox vacib rolunu vurğulayır. O, gənc müəllim -konsertmeysterlərə tələbə üçün repertuar seçimində maksimal dərəcədə diqqətli olmağı məsləhət görür. Nailə xanımın fikrincə, pianoçunun bədii fərdiliyi, ifaçılıq hazırlığı, musiqi qabiliyyəti nəzərə alınaraq dərs prosesində forma, xarakter, janr cəhətdən böyük miqdarda müxtəlif əsərlər ifa etməklə geniş konsertmeysterlik təcrübəsini əldə etmək olar.

İnstrumental müşayiət üzərində işləyərkən professor ilk növbədə tələbəyə orkestr ifaçılığının spesifikası ilə tanış olmağı məsləhət görür: ritmik dəqiqlik, müxtəlif orkestr alətlərinin tembr rəngarəngliyi, səslənmənin pauzada dayandırılması. İnstrumentalçı ilə iş prosesində tam ansambla nail olmaq məqsədi ilə tələbə solistin partiyasını bütün xırdalıqları ilə eşitmək qabiliyyətinə malik olmalıdır. Praktiki məşqlər prosesində Nailə xanımın məqsədi tələbəni müxtəlif nəfəs alətlərinin ifaçılıq spesifikası ilə, bir çox ifa üsulları, ştrixlərlə, ifadəli cümlə quruluşu, nəfəsin alınma və verilməsi anı və s. ilə tanış etməkdir. Simli alətlər sinfində pianoçu Qərbi Avropa, rus, Azərbaycan bəsətkarlarının ən yaxşı instrumental əsərləri ilə tanış olur. Solistin partiyasını öyrənərkən Nailə İbrahimova çalışır ki, müşayiətçi müxtəlif açarlarda (tenor, alt, alt və violonçel sinfində) solo partiyalarını ifa etməyi öyrənsin, simli ştrixlərin spesifikasına, ifa üsullarına nail olsun.

Dinamika - fərdi interpretasiyaya təsir edən amillərdəndir. Nailə xanımın fikrincə, müşayiətdə həm estetik -metodoloji, həm də praktiki baxımdan dinamika probleminin aspekti mövcuddur. Professor piano, fortissimo və s. terminlərin arxasında dərin sosial -psixoloji məzmunun olduğunu qeyd edir və dərs prosesində nümunələrə istinad edir. Məs: kulminasiya, əmr, çağırış, qəti qərar və s. dinamikanın f-yə qədər güclənməsinə gətirdiyi halda, ruhdan düşmə, enerji tükənməsi, qəmlilik və s. f-nı p-ya qədər endirir. Dinamik şkala hətta fff-ya kimi yüksələ (müharibə, ölüm, kütləvi səhnələr) bilər, digər tərəfdən dinamikanın ən aşağı pilləsi olan ppp təbiət pıçıltısı, yuxu, xatirə və s. obrazlara uyğun gələ bilər. Beləliklə, tələbə belə nəticəyə gəlir ki, konkret bədii funksiyadan asılı olaraq müşayiətdə səslənmənin bütün güc diapozonu pianissimodan başlayaraq fortissimoya kimi istifadə oluna bilər.

Nailə İbrahimova onu da qeyd edir ki, səsin tessiturası da (yəni registr) dinamikanın tənzimləyicisidir. Müşayiətçi yuxarı registrlərin cingiltili səsi ilə aşağı registrlərin bir qədər boğuq səsini nəzərə almalıdır. Lakin yaddan çıxmamalıdır ki, vokal-melodik xəttin yüksəlişi və enişi orqanik surətdə məzmun faktoruna tabedir.

Nailə xanımın fikrincə, müşayiətçi onu da yadda saxlamalıdır ki, vokal səslənmə daha çox tələsmədən, sakit hərəkətə meyllidir. Ona görə də vokalçının ifa etdiyi kiçik hissələr (kolaratura kodensiyaların çıxmaq şərti ilə) təmkinlik tələb edir. Müşayiətçi solistə cümləni kulminasiyaya doğru aparmağa,

ifadəliliyi saxlamağa, nitq artikulyasiyasını, intonasiyanı düzgün qurmağa və bütövlükdə daha iri məzmunlu hissələri birləşdirməyə kömək etməlidir. Beləliklə, vokal musiqisi psixofiziki əsasların yüksək səviyyədə açılmasına imkan yaradaraq aqoqikanın prinsiplərini təyin edir. Professor dərs prosesində daha bir məqama da toxunur. Məs: hər hansı bir epizodun markatolu, qabarıq ifası (artikulyasiya) həm səslənmənin dolğunluğu ilə (dinamika), həm də hərəkətin ağırlaşması (aqoqika) ilə bağlıdır.

Əksinə, güclü səslənmə zamanı yüngül staccato düşünülməzdir, belə ki, o istər-istəməz digər ştrixə keçir. Belə nəticəyə gəlmək olar ki, müşayiət fortepiano ifaçılığının həm psixoloji, həm də texnoloji tərəflərinə təsir edir. Nailə İbrahimovanın fikrincə, əsəri dərk etmədən, bədii ustalıqla təhlil etmədən arzu olunan nəticəni əldə etmək təbii ki, qeyri-mümkündür. Əsərin dərin və konkret professional analizi - ifaçılıq metodikasının qarşıya qoyduğu əsas məsələdir.

Nailə İbrahimovanın elmi-tədqiqat sahəsində böyük uğurları vardır. O, konsertmeyster ustalığı fənni üzrə bir sıra kitab, elmi-metodik vəsaitlərin müəllifi kimi Azərbaycan musiqi sənətinə və yüksək ixtisaslı musiqi kadrlarının hazırlanmasına böyük töhfələr verməkdədir.

Nailə İbrahimova gənc nəslə düzgün estetik tərbiyə aşılanmasının, dünyagörüşlərinin genişləndirilməsinin, həmçinin Azərbaycan və dünya klassikası ilə tanışlığın önəmli olduğunu vurğulayır. Professor Nailə xanım musiqinin professional ənənələrinin inkişafı naminə əzmlə çalışır və bu ənənələrin böyük praktik əhəmiyyətə malikliyini qeyd edir.

**Nailə İbrahimova şəxsiyyətibütövlüyü, müdrikliyi, ziyalılığı, təvazökarlığı, özünə qarşı olan misilsiz tələbkarlığı ilə seçilir. Elə bu səbəbdəndir ki, o, sənətdə, ictimai həyatda, adi davranışlarda belə bu keyfiyyətlərini dəyişmir. Akademiyanın müəllim və şagirdləri arasında onun böyük hörməti var. Professor Nailə xanımın yaradıcılığı öz aktuallığını daim saxlayacaqdır.**

**• Venera MƏMMƏDOVA,**
***Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının baş müəllimi***

## Ədəbiyyat

1. Fəridə xanım Quliyevanın şəxsən müəlliflə etdiyi söhbətlərindən xatirələri.
2. Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası/Soltan Hacıbəyovun redaksiyası. B. "Azərnəşr" - 1972.
3. Наиля Ибрагимова. История, теория и практика концертмейстерского мастерства в Азербайджане. Б. - 2006 г.
4. Хавкина - Трахтер Р. Работа в концертмейстерском классе //Вопросы фортепианной педагогики. Вып. 4. сб. стат. под. общ. ред. В. Натансона. М. Музыка. - 1976.

## Резюме

Статья Венеры Мамедовой "Педагогические принципы концертмейстерского мастерства в творчестве Наили Ибрагимовой" посвящена анализу педагогического опыта профессору Наиле Ибрагимовой. Автор в своей статье раскрывает е, основные педагогические принципы, специфику проведения урока и другие важнейшие задачи концертмейстерсого мастерства.

## Summary

Article Venera Mammadova "Pedagogical principles of Accompanists in creativity Naila Ibragimova is dedicated to the analysis of teaching experience, Professor Naila Ibragimova. The author in her article reveals its main pedagogical principles, the specifics of the lesson, and other critical tasks kontsertmeysters skill.

Təqdim etdi: BMA-nın Musiqi tarixi kafedrası
Elmi rəhbər: Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor Gülnaz Abdullazadə